

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 35 (23.197)

*19 fevral 2019-cu il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 18-də Sumqayıt şəhərində ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edib.

Dövlətimizin başçısı həmin gün Sumqayıt Kimya Sənaye Parkında "SOCAR Polymer" layihəsi çərçivəsində inşa edilən yüksəksıxlıqlı polietilen zavodunun açılışında iştirak edib.

Prezident İlham Əliyev yüksəksıxlıqlı polietilen zavodunu işə salıb.

Sonra zavodun ilk məhsulu xatirə olaraq Prezident İlham Əliyevə hədiyyə edilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 18-də Sumqayıta səfəri çərçivəsində burada inşa edilən dənizkənarı bulvarda yaradılan şəraitlə tanış olub.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 18-də Böyük Britaniyanın Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi Baronessa Emma Nikolsonun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

# Naxçıvanda sahibkarlarla görüş olmuşdur





Fevralın 16-da Naxçıvan Biznes Mərkəzində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun muxtar respublikada fəaliyyət göstərən sahibkarlarla görüşü olmuş, muxtar respublikanın investisiya reytinqində qalib olması ilə bağlı təqdimat keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov çıxış edərək demişdir: Ölkəmizdə yaradılan əlverişli biznes mühiti və özəl sektora göstərilən diqqət sahibkarlığın inkişafı üçün geniş imkanlar açıb. Ölkə Prezidenti cənab İlham Əliyev "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının yekunlarına həsr olunmuş konfransda demişdir ki, ***"Sahibkarlıqla bağlı siyasətimiz davam etdiriləcək. Sahibkarlara dövlət tərəfindən böyük dəstək verilir – həm mənəvi dəstək, siyasi dəstək, həm də maddi dəstək. Azərbaycan nadir ölkələrdəndir ki, öz sahibkarına bu qədər diqqət göstərir".***

Ali Məclisin Sədri demişdir: Naxçıvan Muxtar Respublikasında sahibkarlığa göstərilən diqqət və qayğının nəticəsidir ki, ümumi daxili məhsulda özəl bölmənin xüsusi çəkisi artaraq 88 faizi ötmüşdür. Hazırda muxtar respublikada 383 növdə məhsul istehsal olunur, 350 növdə məhsula olan tələbat tamamilə yerli imkanlar hesabına ödənilir. Bu gün muxtar respublikada istər sənayenin, istərsə də kənd təsərrüfatının inkişafı sahibkarlıq fəaliyyəti üçün yaradılan şərait nəticəsində mümkün olmuşdur. Bir faktı qeyd etmək yerinə düşər ki, hazırda muxtar respublikada məşğul əhalinin 83 faizə yaxını özəl sektorda çalışır. Sənaye sahəsində məhsul istehsalının 94 faizi, tikintidə görülən işlərin və nəqliyyat xidmətinin 78 faizi, rabitə xidmətinin 82 faizi, kənd təsərrüfatı, ticarət və ictimai-iaşə xidmətlərinin isə 100 faizi özəl bölmənin payına düşür ki, bu da çox yüksək göstəricilərdir.

Qeyd olunmuşdur ki, əhalinin ərzaqla təminatında kənd təsərrüfatı mühüm rola malikdir. Odur ki, bu sahə üzrə sahibkarlığın inkişafına hərtərəfli qayğı göstərilir. Aqrar sahədə sahibkarlar torpaq vergisi istisna olmaqla, bütün növ vergilərdən azaddırlar. Onlara güzəştli şərtlərlə texnika və avadanlıqlar, kreditlər, subsidiyalar, gübrə verilir, mütərəqqi suvarma sistemləri qurulur. Düşünürük ki, sahibkarlığın inkişafının bir yolu da ailə təsərrüfatlarının fəaliyyətlərini dəstəkləməkdən keçir. Çünki ailə təsərrüfatları həm yerli istehsalın həcminin artmasına və özünüməşğulluğun təmin olunmasına, həm də kiçik və orta sahibkarlığın inkişafına böyük təkan verir. Ona görə də mühüm iqtisadi və sosial əhəmiyyəti nəzərə alınaraq 2019-cu il muxtar respublikada "Ailə təsərrüfatları ili" elan olunmuş, bu sahənin inkişafı ilə bağlı Tədbirlər Planı təsdiq edilmişdir.

Diqqətə çatdırılmışdır ki, müasir dövrdə turizm gəlir gətirən əsas sahələrdəndir. Naxçıvan Muxtar Respublikasının zəngin tarixi, mədəniyyəti və coğrafi şəraiti ilə yanaşı, müasir infrastruktur imkanları da turizm üçün, bu sahədə sahibkarlıq fəaliyyəti üçün geniş imkanlar açır. Müasir yaşayış məntəqələri, abad kəndlər, yollar, sürətli internet, keyfiyyətli məhsul istehsalı turizm sektorunda sahibkarların formalaşmasına zəmin yaradıb.

Ali Məclisin Sədri demişdir: Kəndlərimizdə turizmlə məşğul olan ailə təsərrüfatlarının yaranması da böyük məmnunluq doğurur. Muxtar respublikada sahibkarlığın üstün inkişafının bir səbəbi davamlı maliyyə dəstəyinin olması və kreditlər üzrə ən aşağı faiz dərəcələrinin tətbiqidirsə, digər səbəbi ixracın təşviqi sahəsində görülmüş tədbirlərdir. Bu tədbirlər son nəticədə məhsul istehsalının və ixracın həcminin artmasına səbəb olmuşdur. Hazırda Naxçıvan Muxtar Respublikasının dünyanın 60-a yaxın ölkəsi ilə ticarət əlaqələri vardır. Yerli xammala əsaslanan məhsulların ixracı hesabına ardıcıl olaraq 10 ildir ki, muxtar respublikanın xarici ticarətində müsbət dinamika qeydə alınır. Sahibkarlığın inkişafının dəstəklənməsinin və yaradılan şəraitin nəticəsidir ki, Azərbaycan Respublikası Prezidentinin ilk sədri olduğu "Caspian European Club"un 2018-ci ildə ölkəmizin 10 iqtisadi regionu üzrə hazırladığı illik investisiya reytinqində Naxçıvan Muxtar Respublikası 18 parametr üzrə ən yüksək bal toplayaraq ikinci dəfə lider olmuşdur.



Ali Məclisin Sədri sağlam rəqabət mühiti formalaşdırdığına görə "Caspian European Club"un rəhbərliyinə, eləcə də ölkəmizin və muxtar respublikanın sosial-iqtisadi inkişafı dövlət proqramlarının icrasında əməyi olan bütün sahibkarlara təşəkkür etmişdir.

"Sahibkarlığın inkişafında məqsəd ondan ibarətdir ki, daha çox məhsul istehsal olunsun, daha çox yeni iş yerləri açılsın, sahibkarlıq subyektlərinin ixrac imkanları artsın, ailə təsərrüfatları genişlənsin. Bunun üçün muxtar respublikada hər cür imkan və şərait yaradılıb. Qalır təşəbbüs göstərmək, fəaliyyəti genişləndirmək, rəqabətədavamlı məhsul istehsal etmək və ölkəmizin ümumi inkişafına töhfə vermək", – deyən Ali Məclisin Sədri ümummilli liderimiz Heydər Əliyevin ***"Sahibkarlığın inkişaf etdirilməsi, sərbəst iqtisadiyyata yol verilməsi, bazar iqtisadiyyatının yaradılması bizim strateji yolumuzdur"*** fikirlərini xatırlatmış, bu yolda sahibkarlara və tədbir iştirakçılarına uğurlar arzulamışdır.

Tədbirdə "Caspian European Club"un 2018-ci il üçün Azərbaycanın iqtisadi regionlarının 18 parametr üzrə hazırlanmış illik investisiya reytinqində Naxçıvan Muxtar Respublikasının ən yüksək ümumi bal toplayaraq ardıcıl ikinci dəfə lider olması ilə bağlı təqdimat keçirilmişdir.

"Caspian European Club"un sədrinin birinci müavini və baş icraçı direktoru Telman Əliyev dünyanın 70 ölkəsindən 5 mindən artıq şirkət və təşkilatı birləşdirən "Caspian European Club"un 2018-ci ildə ölkəmizin 10 iqtisadi regionu üzrə hazırlanan illik investisiya reytinqində Naxçıvan Muxtar Respublikasının ikinci dəfə lider olması və muxtar respublikanın yaranmasının 95-ci ildönümü münasibətilə təbriklərini çatdırmışdır. Qeyd olunmuşdur ki, Naxçıvan Muxtar Respublikasının investisiya reytinqində qalib olması artıq bir ənənəyə çevrilib. Bu da ulu öndər Heydər Əliyevin vətəni Naxçıvan Muxtar Respublikasında yaradılmış sabitliyin, özəl sektorun inkişafına göstərilən qayğının, açılan yeni iş yerlərinin və rəqabətədavamlı məhsul istehsalının nəticəsidir. Ümummilli liderimizin yolunu uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə bütün sahələrin inkişafı təmin olunmuşdur. Sahibkarlara hərtərəfli qayğı göstərilir. Naxçıvan Muxtar Respublikasında da sahibkarlıq inkişaf etdirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin qayğısı nəticəsində güclü sahibkarlar sinfi formalaşmışdır.

Telman Əliyev Naxçıvan Muxtar Respublikasında investisiya və biznes mühitinin inkişafına verdiyi xüsusi töhfəyə görə Ali Məclisin Sədrinə "Caspian European Club"un mükafatını təqdim etmişdir.

Tədbirdə Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri Famil Seyidov çıxış edərək demişdir ki, son beş ildə muxtar respublikada yeyinti, yüngül, mebel, metallurgiya, kimya, tikinti olmaqla, 84 sənaye təyinatlı müəssisənin istifadəyə verilməsi, 270 heyvandarlıq, 84 ətlik və yumurtalıq istiqamətində quşçuluq, 111 arıçılıq, 74 bağçılıq və 14 balıqçılıq təsərrüfatının yaradılması nəticəsində məşğulluq səviyyəsi yüksəlmiş, ixracın həcmi artmışdır. Kənd təsərrüfatının davamlı və dinamik inkişafı ailə təsərrüfatlarından bir hissəsinin kiçik sahibkarlıq subyektinə çevrilməsinə zəmin yaratmış, 2018-ci ildə 14 ailə təsərrüfatına 253 min manatdan çox dövlət maliyyə dəstəyi göstərilmişdir. Son 5 ildə muxtar respublikada sahibkarlığın inkişafı məqsədilə bank və kredit təşkilatları tərəfindən 113 milyon 762 min manatdan artıq kredit verilmişdir ki, bunun 40 milyon 497 min manatı Sahibkarlığın İnkişafı Fondunun payına düşmüşdür. İqtisadiyyatın diversifikasiyası və dinamik inkişafı xarici ticarət əlaqələrinin genişlənməsinə də müsbət təsir göstərmiş, 2018-ci ildə xarici ticarət dövriyyəsi 483 milyon 432 min Amerika Birləşmiş Ştatları dollarına

*Ardı 2-ci səhifədə*





çatmış, xarici ticarətdə 365 milyon 101 min Amerika Birləşmiş Ştatları dolları həcmində müsbət saldo yaranmışdır. 2014-2018-ci illərdə muxtar respublikada 85 elm və təhsil, 60 səhiyyə, 13 gənclər və idman, 137 mədəniyyət müəssisəsi, 17 sosial qayğıya ehtiyacı olan ailələr üçün ev, 52 kənd və 54 xidmət mərkəzi tikilərək istifadəyə verilmiş, 1108 kilometr su xətti, 699 kilometr kanalizasiya xətti, 318 kilometr respublika və yerli əhəmiyyətli avtomobil yolları çəkilmiş, 24 körpü tikilmiş və ya əsaslı təmir olunmuşdur. Famil Seyidov özəl sektorun inkişafı üçün yaradılan şəraitə görə sahibkarlar adından minnətdarlıq etmişdir.

Naxçıvan Muxtar Respublikasının təhsil naziri Rəhman Məmmədov çıxış edərək demişdir ki, muxtar respublikada peşə təhsilinin inkişafı və ixtisaslı kadr hazırlığı təmin olunmuş, zəruri infrastruktur yaradılmışdır. Muxtar respublikada fəaliyyət göstərən 3 texniki-peşə və sürücülük məktəbi, 1 peşə liseyi və 1 regional peşə tədris mərkəzi üçün binalar tikilmiş və ya əsaslı şəkildə yenidən qurulmuş, peşə təhsili müəssisələri 78 kompüter, 33 elektron lövhə, 6 avtotrenajor, 22 emalatxana, maşın və mexanizmlərlə təmin edilmişdir. Hazırda peşə təhsili müəssisələri əmək bazarının, o cümlədən işəgötürənlərin tələblərinə uyğun ixtisaslar üzrə kadr hazırlığını həyata keçirir. Muxtar respublikada sahibkarlıq fəaliyyətinin genişləndirilməsi, yeni sənaye, tikinti, xidmət və emal sahələrinin, ailə təsərrüfatlarının yaradılması, yaradılan yeni müəssisələrdə müasir maşın və mexanizmlərin tətbiqi əmək bazarında peşə təhsilli kadrlara tələbatı artırmışdır. 2018-ci ildə muxtar respublikada 19 ixtisas üzrə 702-si qadın olmaqla, 3109 nəfər peşə təhsili almışdır. Hazırda peşə təhsili müəssisələrində müxtəlif ixtisaslar üzrə, ümumilikdə, 873 müdavim təhsilini davam etdirir. Bu isə gənclərin müvafiq peşələrə yiyələnərək məşğulluğunun təmin olunmasına, eləcə də müəssisə və təşkilatların, həmçinin özəl sektorun ixtisaslı kadrlarla təminatına öz müsbət təsirini göstərir.

Naxçıvan Muxtar Respublikası Sahibkarlar Konfederasiyasının sədri, "Cahan Holdinq" Kommersiya Şirkətləri İttifaqının direktoru Vüqar Abbasov demişdir ki, muxtar respublikada iqtisadiyyatın şaxələndirilməsi istiqamətində həyata keçirilən tədbirlərə uyğun olaraq 22 əsas şirkəti özündə birləşdirən "Cahan Holdinq" son illər uğurlu layihələrə imza atmış, yeni müəssisələr yaradılmış, 285 yeni iş yeri açılmışdır. Naxçıvan Muxtar Respublikasında gəlirli sahə olan tütünçülüyün inkişafı, tütün emalı sahələrinin yaradılması və xammala olan tələbatın yerli istehsal hesabına ödənilməsi məqsədilə holdinqin tərkibində yaradılmış Tütün Yetişdirmə Mərkəzinin fəaliyyəti ötən il genişləndirilmiş, əkin sahələri 41 hektara çatdırılaraq 51 ton quru tütün tədarük edilmişdir. Bu tədbirlərin davamı olaraq 2019-cu ildə 22 ailə təsərrüfatı ilə 100 hektar ərazidə tütün əkini üçün müqavilələr bağlanmışdır. Bu məqsədlə cari ildə Cəhri kəndi ərazisində yeni mövsümi tədarük məntəqəsinin yaradılması başa çatdırılacaqdır. 2018-ci ildə torpaq mülkiyyətçilərinin və sahibkarların bu sahəyə marağının artdığını nəzərə alaraq şirkətin "Cahan Tabak Beynəlxalq" müəssisəsində 14 milyon manat dəyərində yeni istehsal xətti quraşdırılmışdır. Holdinqin məhsulları daxili tələbatı ödəməklə yanaşı, Müstəqil Dövlətlər Birliyi ölkələrinə də ixrac olunur. Holdinq Türkiyədə, Rusiyada, İsveçrədə, Birləşmiş Ərəb Əmirliklərində və Çin Xalq Respublikasında öz filiallarını açaraq xarici bazarlarda təmsil olunmağa başlamış, Moskva şəhərində və Türkiyənin İqdır şəhərində yeni satış mərkəzləri yaradılmışdır. Bunlarla yanaşı, Bakı, Gəncə, Masallı, Quba, Goranboy və Şəki şəhərlərində xidmət sahələri açılmışdır. Vüqar Abbasov sahibkarlığın inkişafına göstərdiyi qayğıya görə kollektiv adından Ali Məclisin Sədrinə minnətdarlıq etmişdir.

Tədbirdə çıxış edən "Naxtel" Məhdud Məsuliyyətli Cəmiyyətinin icraçı direktoru Kamil Yusifov demişdir ki, 2016-cı ildən fəaliyyət göstərən "Naxtel" Məhdud Məsuliyyətli Cəmiyyətinin yaradılmasına 10 milyon manatı Sahibkarlığın İnkişafı Fondundan, 2 milyon manatı "Naxtel" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən olmaqla, ümumilikdə, 12 milyon manat vəsait sərf olunmuşdur. Muxtar respublikanın yaşayış məntəqələrinin 99 faizini əhatə edən dördüncü nəsil mobil rabitə şəbəkəsinin 2018-ci ildə abunəçi sayı 2 dəfə artmışdır. Hazırda Naxtelin qeydiyyatdan keçən abunəçi sayı 65 mini ötüb. Naxçıvan şəhərindəki və rayonlardakı Naxtel Satış və Xidmət Mərkəzləri abunəçilərə keyfiyyətli mobil rabitə xidmətləri təklif edirlər. "Naxçıvanbank"a məxsus POS-terminallar, ATM və vətəndaşların müxtəlif kateqoriyalı ödənişlərini vahid ödəniş platformasından icra etməsi Pay-Point ödəniş terminallarında Naxtelin data şəbəkəsi vasitəsilə həyata keçirilir. Beynəlxalq rominq xidməti artıq 7 ölkədə aktivləşdirilib və digər ölkələrdə də aktivləşdirilməsi üçün işlər test və yoxlama mərhələsindədir. Ümumilikdə, 25 ölkədə beynəlxalq rominq xidmətinin aktivləşdirilməsi planlaşdırılmışdır. Bu il yeni kampaniya, təklif, tarif və paketlər abunəçilərə təqdim ediləcəkdir. Kamil Yusifov göstərilən qayğıya görə minnətdarlıq etmiş, fəaliyyətlərini daha da genişləndirəcəklərini bildirmişdir.

"Zümrüd Geyim" Məhdud Məsuliyyətli Cəmiyyətinin direktoru, qadın sahibkar Mehrəngiz Əkbərova demişdir: "Müxtəlif çeşiddə geyimlər istehsal edən "Zümrüd" Kiçik Müəssisəsi göstərilən qayğıdan bəhrələnərək fəaliyyətini genişləndirmiş, bazarın tələbatının böyük bir hissəsinin ödənilməsinə nail olmuşdur. 2018-ci ildə müəssisədə köynək, kişi, qadın, uşaq alt və üst trikotaj geyimləri istehsal edən "Zümrüd Geyim" Məhdud Məsuliyyətli Cəmiyyətini yaratmışıq. İstehsal gücü 8 saatlıq iş rejimində 13 çeşiddə 1000 ədəd geyim olan müəssisə daxili bazarın tələbatını ödəyəcəkdir. İstehsal olunan məhsullar muxtar respublikanın paytaxtı Naxçıvan şəhərində, həmçinin rayon mərkəzlərindəki ticarət obyektlərində və kəndlərdəki xidmət mərkəzlərində satılır. Yeni istehsal sahəsinin yaradılması əhalinin məşğulluğunun təmin



olunmasında da mühüm rol oynamış, 45 yeni iş yeri açılmışdır. Fəaliyyətimiz üçün yaradılan şəraitə görə minnətdarlığımızı bildirir və əmin edirik ki, iqtisadiyyatımızın inkişafı, əhalinin rifah halının daha da yaxşılaşdırılması istiqamətində göstərilən diqqət və qayğıya öz əməli işimizlə cavab verəcəyik".

Babək rayonunun Hacıvar kəndində fəaliyyət göstərən heyvandarlıq təsərrüfatı və süd məhsullarının istehsalçısı İlqar Mirzəyev çıxış edərək demişdir: 2019-cu ilin Naxçıvan Muxtar Respublikasında "Ailə təsərrüfatları ili" elan olunması ailə təsərrüfatlarını daha səylə fəaliyyət göstərməyə ruhlandırıb. Yaradılmış şəraitdən lazımınca yararlanaraq biz də öz ailə təsərrüfatımızı qurmuşuq. 2017-ci ildə Babək rayonunun Hacıvar kəndində gündəlik istehsal gücü 500 litr olan süd məhsullarının istehsalı sahəsini yaratmışıq. Təsərrüfatımızda istehsal sahəsi ilə yanaşı, hazır məhsulların saxlanılması üçün soyuducu kamera qurulmuşdur. İlkin mərhələdə təsərrüfatımızda iki çeşiddə qatıq istehsalı həyata keçirilirdisə, artıq burada 36 çeşiddə süd məhsulu istehsal olunur. İstehsal etdiyimiz məhsullar rayon



ərazisində, eləcə də Naxçıvan şəhərindəki bir çox ərzaq mağazalarında ailə təsərrüfatı əmtəə nişanı ilə satışa çıxarılır. Təsərrüfatımızda müasir avadanlıqların quraşdırılması yüksəkkeyfiyyətli və rəqabətqabiliyyətli məhsul istehsal etməyə imkan verir. Yeni heyvandarlıq təsərrüfatı da yaratmışıq. Xammala olan tələbat öz təsərrüfatımız hesabına ödənilir ki, bu da istehsal olunan məhsulun maya dəyərini xeyli aşağı salmışdır. Bundan başqa, təsərrüfatımızda südün istehsalı ilə yanaşı, ətraf kəndlərin fermerlərindən də süd tədarük edirik. İqtisadi səmərə əldə etmək məqsədilə quşçuluq təsərrüfatımızı da inkişaf etdiririk. İstehsal olunan sağlam heyvandarlıq məhsullarının isə daimi alıcısı vardır. Təsərrüfatımıza ailə üzvlərimizlə yanaşı, 4 işçi də cəlb etmişik. Artıq ailə təsərrüfatımız kiçik sahibkarlıq subyekti kimi formalaşır. İlqar Mirzəyev muxtar respublikada ailə təsərrüfatlarının inkişafı üçün yaratdığı əlverişli şəraitə görə ailəsi adından Ali Məclisin Sədrinə minnətdarlıq etmişdir.

Sonra Ali Məclisin Sədri yeni istehsal və xidmət sahələrinin yaradılması üçün 14 sahibkara güzəştli kreditlərin çeklərini təqdim etmişdir. Bu kreditlər ərzaq məhsulunun istehsalına, quşçuluq təsərrüfatının yumurtalıq sahəsinin yenidən qurulmasına, birdəfəlik istifadə üçün kağız stəkan istehsalı, ətlik istiqamətində heyvandarlıq, damazlıq arı təsərrüfatlarının və balın emalı sahələrinin, arıçılıq təsərrüfatlarının genişləndirilməsinə, meyvə-tərəvəz məhsullarının, yabanı növ bitkilərin tədarükü və konservləşdirilməsinə, limon istixana təsərrüfatının, eləcə də soyuducu anbarın yaradılmasına sərf olunacaqdır.

Güzəştli kreditlə təmin olunmuş ailə təsərrüfatı sahibləri – Culfa şəhər sakini, arıçı İlqar Hüseynov və Kəngərli rayonunun Xok kənd sakini, fermer Hüseyn Məmmədov göstərilən qayğıya görə minnətdarlıq etmişlər.

Tədbirdə 2018-ci ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafından bəhs edən film nümayiş etdirilmişdir.

Ali Məclisin Sədri Naxçıvan Biznes Mərkəzinin sərgi salonunda muxtar respublikada istehsal olunan məhsullardan ibarət sərgiyə baxmışdır.

Qeyd olunmuşdur ki, sərgi salonunda 94 müəssisənin 196 növdə və 1232 çeşiddə məhsulu, 65 ailə təsərrüfatında istehsal olunan 20 növdə 157 çeşiddə məhsul, 80 sənətkar tərəfindən hazırlanan 1088 əl işi, rəsm əsərləri, xalçalar və Naxçıvan Muxtar Respublikasının istehsal müəssisələrinin xəritəsi nümayiş olunur. Naxçıvan Avtomobil Zavodunda 15 modeldə avtomobil istehsal olunur. Hazırda zavodun Naxçıvan şəhərində, Şərur və Culfa rayonlarında ehtiyat hissələrinin satışı mağazaları fəaliyyət göstərir. Ötən il isə Şərur və Culfa rayonlarında texniki xidmət sahələri yaradılıb.

Ali Məclisin Sədri qapalı müəssisələrin təminatının yalnız yerli istehsal hesabına ödənilməsi, muxtar respublikanın ixrac kataloquna müəssisələrin keyfiyyət sertifikatının da əlavə olunması, yerli istehsal hesabına toxuculuq və tikiş müəssisələri üçün xammal bazasının yaradılması, hədiyyəlik qızıl pulların istehsalı, Darıdağ suyundan hazırlanmış duzun tanıdılması, Naxçıvan Avtomobil Zavodu tərəfindən avtomobillərin ehtiyat hissələri təminatının həyata keçirilməsi, kəndlərdəki xidmət mərkəzlərinin yerli ərzaq və sənaye məhsulları ilə təminatının gücləndirilməsi barədə tapşırıqlar vermişdir.

2018-ci ilin muxtar respublika üçün uğurlu olduğunu bildirən Ali Məclisin Sədri Naxçıvan Muxtar Respublikasının illik investisiya reytinqində ikinci dəfə lider, eləcə də Dövlət İmtahan Mərkəzinin ötən ilin buraxılış imtahanları ilə bağlı hazırladığı məlumatlarda Naxçıvan Muxtar Respublikasının nəticələrinin ölkə üzrə ümumi statistik göstəricilərindən yüksək olduğunu diqqətə çatdırmış, bu işlərdə əməyi olanlara bir daha təşəkkür etmişdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

## Heydər Əliyev Muzeyinin yaradılmasının 20 illiyinə həsr olunmuş tədbir keçirilib



*Fevralın 18-də Heydər Əliyev Muzeyinin yaradılmasının 20 illiyinə həsr olunmuş tədbir keçirilib.*

Muzeydə keçirilən tədbiri Naxçıvan Muxtar Respublikasının mədəniyyət naziri Natəvan Qədimova giriş sözü ilə açaraq bildirib ki, milli-mənəvi dəyərlərimizin, tarixi yaddaşımızın gələcək nəsillərə çatdırılmasında muzeylərimizin rolu əvəzsizdir. Ümummilli lider Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə geniş muzeylər şəbəkəsinin yaradılmasına xüsusi diqqət və qayğı göstərib. Bu gün doğma Vətənimizdə, o cümlədən qədim diyarımızda ümummilli liderin siyasi kursu layiqincə davam etdirilir. Muzeylərin yaradılmasına və inkişafına, maddi-texniki bazasının möhkəmləndirilməsinə böyük diqqət və qayğı göstərilir.

Qeyd edilib ki, bu gün iyirmiillik bir tarixə malik Heydər Əliyev Muzeyinin muxtar respublikada yaradılan muzeylər içərisində xüsusi yeri və əhəmiyyəti vardır. Muzey Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 1999-cu il 18 fevral tarixli Sərəncamı ilə yaradılıb. Bu sərəncam Heydər Əliyev şəxsiyyətinə olan sonsuz ehtiram və məhəbbətin bariz nümunəsidir.

Nazir qeyd edib ki, Naxçıvan şəhərinin mərkəzində yerləşən Heydər Əliyev Muzeyi 10 may 1999-cu ildə 420 eksponatla fəaliyyətə başlayıb. Muzeydə hazırda 4746 eksponat vardır. Bu gün ümummilli liderimizin həyat və fəaliyyətini əks etdirən çoxsaylı muzeylər fəaliyyət göstərməkdədir. Muxtar respublikamızın paytaxtındakı Heydər Əliyev Muzeyi isə ulu öndərimizin dünyaya gəldiyi və ilk əmək fəaliyyətinə başladığı şəhərdə yaradılıb. Bu həm də o deməkdir ki, dahi şəxsiyyətin zəngin dövlətçilik təcrübəsindən bəhrələnmək məhz ilk dəfə Naxçıvanda reallaşdırılıb.

Hələ sağlığında canlı əfsanəyə çevrilən, öz xalqının tarixi taleyində müstəsna rol oynayan bu dahi şəxsiyyətin irsi, onun idarəçilik məktəbi bu gün də öyrənilir, zəngin təcrübəsindən hamı bəhrələnir. Bu işdə Heydər Əliyev Muzeyinin də mühüm rolu vardır. Muzeydə görkəmli dövlət xadiminin həyatı və fəaliyyəti ilə bağlı nə varsa, ehtiramla qorunur, tədqiq və təbliğ edilir. Onun zəngin irsi və dövlətçilik təcrübəsinin öyrənilməsi gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsində müstəsna rol oynayır. Ötən illər ərzində Heydər Əliyev Muzeyi ümummilli liderimizin həyat və fəaliyyət fəlsəfəsinin, elminəzəri irsinin, Azərbaycançılıq ideologiyasının öyrənilməsi, təbliği və gələcək nəsillərə çatdırılması kimi şərəfli missiyanı layiqincə yerinə yetirib. Bu gün də bu işlər uğurla davam etdirilir.

Vurğulanıb ki, 20 il ərzində Heydər Əliyev Muzeyində ümummilli liderin ictimai-siyasi fəaliyyətini öyrənmək, tədqiq və təbliğ etmək üçün mühüm işlər həyata keçirilib. Bu illərdə muzeyin maddi-texniki bazası möhkəmləndirilib, internet saytı fəaliyyətə başlayıb.

Muzeyin həyatında ən əlamətdar hadisələrdən biri 1999-cu ilin oktyabr ayında ulu öndər Heydər Əliyevin muzeyin ekspozisiyası ilə tanış olmasıdır. Bu ziyarət zamanı çəkilmiş fotolar muzeyin dəyərli eksponatları siyahısındadır. Muzeyin xatirə kitabında dünyanın müxtəlif xalqlarının nümayəndələrinin ulu öndər haqqında yazdığı fikirlər də maraq doğurur.

Nazir çıxışının sonunda bu əlamətdar gün münasibətilə tədbir iştirakçılarını və muzeyin əməkdaşlarını təbrik edib.

Tədbirdə Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının icra katibi Anar İbrahimov "Heydər Əliyev: siyasi irsi və müasir Azərbaycan" mövzusunda çıxış edərək bildirib ki, ümummilli lider həmişə Azərbaycanı düşünüb, onun taleyi ilə yaşayıb, doğma Vətəninin dünyada tanıdılması üçün müstəsna xidmətlər göstərib. Heydər Əliyevin genişmiqyaslı fəaliyyətindən söhbət açan Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının icra katibi ulu öndərin siyasi irsindən geniş və ətraflı məlumat verib. Qeyd edilib ki, onun siyasi irsi bu gün də öyrənilir və bütün nəsillər ondan bəhrələnəcəkdir.

Naxçıvan Muxtar Respublikasının Gənclər Fondunun icraçı direktoru Cəbi Quliyev "Heydər Əliyev və Azərbaycan gəncliyi" mövzusunda çıxışında bildirib ki, ölkəmizdə gənclər siyasətinin əsasını ümummilli liderimiz Heydər Əliyev qoyub. Ulu öndər sağlamdüşüncəli yeni nəslin yetişdirilməsini dövlət və cəmiyyətin mühüm vəzifəsi kimi daim diqqət mərkəzində saxlayıb, gənclərin dövlətin və cəmiyyətin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında iştirakının təmin olunmasını prioritet məsələ elan edib.

Ümummilli liderin dövlət gənclər siyasəti bu gün də ölkəmizdə, eləcə də muxtar respublikamızda uğurla davam etdirilir.

Heydər Əliyev Muzeyinin direktoru, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi Ramil Orucəliyev "Heydər Əliyev Muzeyi 20 ildə" adlı çıxışında bildirib ki, muxtar respublikamızda keçirilən dövlət tədbirlərində insanların müzey önündə ucalan ümummilli liderimizin əzəmətli abidəsini və Heydər Əliyev Muzeyini ehtiramla ziyarət etmələri ənənə şəklini alıb. Bu, ulu öndərin şəxsiyyətinə və dühasına sonsuz sevgi və ehtiramın ifadəsidir.

Sonda muzeyin ekspozisiyasına baxış olub.

**Əli RZAYEV**

*Naxçıvan Müəllimlər İnstitutunda IV kurs İbtidai sinif müəllimliyi, Məktəbəqədər təlim və tərbiyə, V kurs Riyaziyyat və informatika müəllimliyi ixtisaslarında təhsil alan tələbələr üçün keçiriləcək pedaqoji təcrübənin başlanğıc konfransı olub. Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi və Naxçıvan Müəllimlər İnstitutunun birgə təşkilatçılığı ilə keçirilən konfransı giriş sözü ilə institutun rektoru, dosent Elbrus İsayev açaraq son illər ölkəmizdə təhsil sahəsində tətbiq olunan yeniliklərdən danışıb, təşkil edilən pedaqoji təcrübələrin əhəmiyyətindən bəhs edib.*

## Pedaqoji təcrübənin başlanğıc konfransı



Konfransda Naxçıvan Muxtar Respublikasının təhsil naziri Rəhman Məmmədov çıxış edərək bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" 2015-ci il 27 iyul tarixli Sərəncamının icrası daim diqqətdə saxlanılır. Ötən müddət ərzində bu istiqamətdə görülən tədbirlər nəticəsində muxtar respublikadakı ali və orta ixtisas təhsili müəssisələrində müvafiq ixtisaslarda təhsil alan tələbələrin daha yüksək səviyyədə hazırlığına, təcrübələrə yiyələnmələrinə geniş imkanlar açılıb.

Qeyd olunub ki, 2019-cu ilin 18 fevral-24 may tarixlərində institutun 169 tələbəsinin Heydər Əliyev adına tam orta məktəbdə, Naxçıvan Qızlar Liseyində və Naxçıvan şəhərindəki 8, 11, 12, 14 nömrəli tam orta məktəblərdə təcrübə keçməsi üçün Təhsil Nazirliyi tərəfindən lazımi şərait yaradılacaq, onların yüksək səviyyədə praktik iş qabiliyyətinə yiyələnmələri diqqətdə saxlanılacaq. Təcrübəçi tələbələrə müasir təhsil sistemində pedaqoji yeniliklər, yeni dərsliklər, dərs vəsaitləri və elektron tədris vasitələrindən səmərəli istifadə yolları təcrübi şəkildə öyrədiləcək. Həmçinin pedaqoji təcrübə zamanı məktəblilərə müasir yanaşma formaları, müəllim-şagird-valideyn əlaqələrinin qurulması, məktəbə rəhbərliyin metodları, şagirdlərlə psixoloji işin aparılması yolları, ümumilikdə, təhsil sahəsində mövcud olan bütün yeniliklərin çatdırılması həyata keçiriləcək.

Vurğulanıb ki, ali məktəbləri bitirən kadrların işlə təminatı da diqqətdə saxlanılır. 2018-ci ildən pedaqoji kadrların müsabiqə ilə işə qəbulu isə gənc kadrların işlə təmin olunmasına, eləcə də ümumtəhsil müəssisələrinin bilikli müəllimlərlə təminatına geniş imkanlar açıb. Bu tədris ili ərzində 119 gənc kadr Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən keçirilən müsabiqədə yüksək nəticə göstərərək muxtar respublikanın ümumtəhsil məktəblərində ixtisasları üzrə müəllim kimi işlə təmin olunub. Onlardan 20-si Naxçıvan Müəllimlər İnstitutunun məzunudur. Bununla yanaşı, vakant vəzifələrə işə qəbul üçün keçirilən imtahanların nəticələrinə uyğun olaraq Naxçıvan Müəllimlər İnstitutunun 7 məzunu ümumtəhsil məktəblərində psixoloq, bir məzunu isə uşaq birliyi təşkilatının rəhbəri vəzifəsinə təyin olunub.

Konfransda Naxçıvan Müəllimlər İnstitutunun prorektoru Azad Novruzov, istehsalat təcrübə rəhbəri Təranə Əliyeva və institutun Pedaqogika və psixologiya kafedrasının baş müəllimi Çapay Quliyev çıxış edərək pedaqoji təcrübənin əhəmiyyəti və tədris planında yeri, təşkili ilə bağlı görülmüş işlər, təcrübə müddətində pedaqoq, psixoloq və təcrübəçi tələbələrin qarşısında duran vəzifələr barədə məlumat veriblər.

Sonra pedaqoji təcrübə ilə bağlı metodik vəsaitlərin yer aldığı sərgiyə baxış olub.

**Nail ƏSGƏROV**

## "Nəsimi kəlamının işığında" adlı ədəbi-bədii gecə

*Fevralın 16-da görkəmli şair İmadəddin Nəsiminin 650 illik yubileyi münasibətilə Naxçıvan Muxtar Respublikasının Gənclər Fondu tərəfindən təşkil olunan "Nəsimi həftəsi" "Nəsimi kəlamının işığında" adlı ədəbi-bədii gecə və mükafatlandırma mərasimi ilə yekunlaşıb.*



Əvvəlcə çıxış edən Naxçıvan Muxtar Respublikasının Gənclər Fondunun icraçı direktoru Cəbi Quliyev "Nəsimi həftəsi"nin keçirilməsinin əhəmiyyətindən və gənc nəslin dahi şairin poetik irsinin daha geniş öyrənməsinin vacibliyindən danışıb.

Bildirilib ki, fevralın 11-16 tarixlərini əhatə edən "Nəsimi həftəsi"nin qrafikinə əsasən "Nəsimi" tarixi filminin nümayişi, Xalq şairi Qabilin "Nəsimi" poemasının müzakirəsi, İmadəddin Nəsiminin həyat və yaradıcılığına dair "Nə? Harada? Nə zaman?" intellektual oyunu, "Poeziyamızın fatehi" adlı bədii qiraət müsabiqəsi keçirilib. Həftə ərzində təşkil olunan tədbirlərdə yüzlərlə gənc fəal iştirak edib. "Nəsimi kəlamının işığında" adlı ədəbi-bədii gecə və mükafatlandırma mərasimi ilə "Nəsimi həftəsi"nə yekun vurulur.

Sonra Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri, Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi, şair Asim Əliyev, Naxçıvan Dövlət Universitetinin Tarix kafedrasının professoru Sevinc Abbasova, AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Folklorşünaslıq şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru Elxan Məmmədov, Azərbaycan Respublikasının Əməkdar artisti Vidadi Rəcəbli, "Əlincəqala" Tarix-Mədəniyyət Muzeyinin direktoru Kamal Gülmalıyev ustad sənətkar, dahi şairimiz İmadəddin Nəsiminin həyat və yaradıcılığından geniş söhbət açıb, onun poeziyasından nümunələr səsləndiriblər. Nəsimi qəzəllərindən bədii qiraət və ifalar ustad sənətkarın irsini tədbir iştirakçılarına çatdırmaqda mühüm rol oynayıb.

Tədbirdə "Nəsimi həftəsi" çərçivəsində reallaşan "Poeziyamızın fatehi" bədii qiraət müsabiqəsinin qalibi olmuş gənclərin çıxışları, Naxçıvan Musiqi Kolleci tələbələrinin müşayiəti ilə musiqi proqramı və dahi şairin obrazının yaradılması gecəyə əlavə rəng qatıb. Həmçinin gecədə "Nə? Harada? Nə zaman?" intellektual oyununun, adıçəkilən bədii qiraət müsabiqəsinin qalibləri mükafatlandırılıb.

Qeyd edək ki, ədəbi-bədii gecə fondun "İnstagram" və "Facebook" sosial şəbəkə hesablarından canlı olaraq yayımlanıb.

**Güntac ŞAHMƏMMƏDLİ**

## Səhiyyə müəssisəsində son model termik dövr cihazından istifadəyə başlanılıb

Naxçıvan Muxtar Respublikası Yoluxucu Xəstəliklər Mərkəzində Polimeraz zəncirvarı reaksiyası (PZR) üçün termik dövr cihazından istifadəyə başlanılması səhiyyə sisteminin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində növbəti uğurlardan biridir. Mərkəz əvvəllər bu cihazla təchiz edilsə də, manual hissə çatışmadığından indiyədək istifadəsiz halda idi. Həmin hissə ötən ilin sonlarında alınaraq cihazla birgə fevralın 7-də Yoluxucu Xəstəliklər Mərkəzinin QİÇS şöbəsində işə salınıb. Bu prosesdə Bakı şəhəri və Ankaradan dəvət edilmiş tibb üzrə mütəxəssislərlə birgə çalışan həkim-laborant Münəvvər Ələsgərli kifayət qədər təcrübə qazanaraq analizləri sərbəst şəkildə həyata keçirir.

Hazırda müasir səhiyyə sistemində son modellərdən sayılan termik dövr cihazı ilə HİV daşıyıcısı olan xəstələrin laborator müayinələri aparılır. Bundan əlavə, hepatit B və C viruslarının müayinəsi üçün aparata xüsusi proqram yüklənib. Yaxın günlərdə həmin müayinələrə yanaşı, qrip viruslarının laborator müayinələri də icra olunacaq.

Bütövlükdə isə, PZR cihazı özündə bir neçə funksiyanı birləşdirir. Biokimya və molekulyar biologiya sahələrində hüceyrənin hər hansı bir canlı orqanizm istifadə edilmədən, sadəcə, ferment vasitəsilə külli miqdarda çoxaldılması üçün istifadə edilir. Bu metod süni şəraitdə, orqanizmdən kənarda polimeraz fermenti vasitəsilə müəyyən nahiyəni seçərək surətinin çoxaldılması prinsipinə əsaslanır. Çağdaş genetik mühəndisliyin uğuru sayılan bu üsul molekulyar genetikanın inkişafında böyük rol oynayıb. Kari Mullis tərəfindən 1983-cü ildə icad edilən metod ona Nobel mükafatını qazandırıb.

Qeyd edək ki, polimeraz zəncirvarı reaksiyası vasitəsilə aparılan analiz bir çox tibbi suallara cavab tapmağa kömək edir, nəticədə, pasiyentin diaqnoz və müalicəsi düzgün həyata keçirilir. Xüsusilə kultivasiyası çətin patogen orqanizmlərin hepatit və digər virusların təyin olunmasında, həmçinin genetik xəstəliklərin diaqnostikasında istifadə edilir.

Yeni metodun tətbiqi muxtar respublikada tibb sahəsində əldə edilən mühüm yeniliklərdən biridir. Fərəhlə demək olar ki, artıq muxtar respublika əhalisinin bu problemlərlə bağlı olaraq Bakı şəhərinə, qonşu xarici ölkələrə getmələrinə ehtiyac yoxdur.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2019-cu il 17 yanvar tarixli Sərəncamına əsasən bu il böyük yazıçı, dramaturq, publisist və ictimai xadim Cəlil Məmmədquluzadənin anadan olmasının 150 illik yubileyi qeyd edilir. Azərbaycan publisistikasını, dramaturgiyasını bənzərsiz əsərlərlə zənginləşdirən, yeni bir ədəbi məktəb yaradan, "kiçik hekayənin böyük ustadı" kimi tanınan qüdrətli naşir "Molla Nəsrəddin" jurnalı ilə Azərbaycanda, eləcə də Yaxın Şərqdə satirik jurnalistikanın əsasını qoydu.***

***Ədibin yaradıcılığında bir müddət onun Nehrəmdə yaşayıb fəaliyyət göstərdiyi dövr də xüsusi yer tutur. Burada dərs dediyi illərdə fəaliyyətini millətin maariflənməsinə, qəflət yuxusundan oyanmasına, tərəqqisinə həsr edən böyük ədib Azərbaycan ədəbiyyatının ən dəyərli nümunələrini yaradıb. Bununla bağlı Cəlil Məmmədquluzadənin bu kənddə yerləşən Xatirə Muzeyinin direktoru, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi Akif Hacıyevlə həmsöhbət olduq.***



*Cəlil Məmmədquluzadə – 150*

# Mirzə Cəlil taleyində və yaradıcılığında Nehrəm kəndi

*– Akif müəllim, Azərbaycan müstəqillik əldə etdikdən sonra ədəbi-mədəni irsimizin unudulmaz himayədarı, ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə dövlətimiz tərəfindən Mirzə Cəlil şəxsiyyətinə və yaradıcılığına da böyük ehtiram, diqqət və qayğı göstərilməyə başlandı və bu müqəddəs məram bu gün də layiqincə davam etdirilir. Siz də təsdiqləyərsiniz ki, ölkə başçısının böyük ədibin anadan olmasının 150 illik yubileyinin keçirilməsi üçün Sərəncam imzalaması, bununla bağlı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov tərəfindən Tədbirlər Planının təsdiq olunması milli birlik və Azərbaycançılıq ideologiyasının yaradıcılarından olan dahi demokratın həyatına və bədii-publisistik irsinə verilən yüksək qiymətdir.*

– Ömrünü xalq yolunda şam kimi əridən bu dahi yazıçının 150 illik yubileyinin qeyd olunması ilə bağlı qəbul edilən tarixi qərarları eşidən zaman bir ziyalı, Cəlil Məmmədquluzadənin Nehrəm kəndindəki Xatirə Muzeyinə uzun müddət rəhbərlik edən bir vətəndaş kimi qürur hissi keçirdim. Bir çox ədəbi janrlarda öz qələmini uğurla sınayan böyük vətəndaş publisistin əsərləri müstəqillik illərində kütləvi tirajlarla nəşr olunub, xatirəsi əbədiləşdirilib, yaradıcılığına və şəxsiyyətinə böyük qiymət verilib. Ali Məclisin Sədri tərəfindən imzalanan Sərəncamla təsdiqlənən "Oxunması zəruri olan kitabların Siyahısı"nda ədibin "Hekayələr"inin yer alması da Mirzə Cəlil yaradıcılığının gənc nəsildə vətənpərvərliyin, tarixə, milli kökə bağlılığın formalaşdırılmasında nə qədər mühüm əhəmiyyət kəsb etdiyini bir daha təsdiqləyir.

*– İstər mövzu, istərsə də dərin həyat müşahidələrinin formalaşması baxımından Nehrəm kəndi dahi ədibin həyatında hansı mövqeyə malikdir?*

– Cəlil Məmmədquluzadə Qori Müəllimlər Seminariyasını bitirdikdən sonra İrəvan quberniyasının Uluxanlı və Şərur rayonunun indiki Cəlilkənd kəndlərinə gəlir və burada müəllim kimi fəaliyyətə başlayır. Sonradan yaradıcılığını daha da genişləndirmək, ziyalılarla sıx əlaqədə olmaq üçün Naxçıvan şəhərinə yaxın kəndlərdə məskunlaşmaq istəyir. Buna görə də o, 1890-cı ildə Nehrəmə gəlir. Çox keçmir ki, Nehrəmdə maarifpərvər ziyalı, tarixi romanlar müəllifi Məmməd Səid Ordubadi ilə görüşür. XX əsr Azərbaycan ədəbiyyatında yeni bir cığır açan sənətkar 1894-cü ildə ilk irihəcmli nəsr əsəri olan "Danabaş kəndinin əhvalatları" povestini yazır. Əsərdə XIX əsrin sonları üçün Azərbaycan kəndinin feodal-patriarxal mühiti, zülm və özbaşınalıqlar, xalqı cəhalətdə saxlayan mövhumat və xurafat əks etdirilir. Bənzərsiz nasirin qələmi ilə çar Rusiyası dövründə Azərbaycan kəndlərinin ümumi mənzərəsi əks olunub. Povestdə diqqətçəkən məqamlardan biri ictimai quruluşun əzib təhqir etdiyi Məhəmmədhəsən əmi kimi sadəlövh kəndlilərin mənəvi hüquqsuzluğudur. Əsərdə Xudayar bəy kimi kəndxudalar, rüşvət xatirinə İslam qanunlarını pozan qazılar, qlava və kərbəlayılar, cəhalət və nadanlıq girdabında boğulmuş kəndlilər Mirzə Cəlil qələminin əsas tənqid obyektləri olub. Nicat yolunu yalnız maariflənmək, elm öyrənməkdə görən Cəlil Məmmədquluzadə təkcə yazıçı-publisist kimi öz satirik qələmi ilə deyil, ziyalı, vətənpərvər kimi ictimai fəaliyyəti ilə də bu ideya uğrunda mübarizə aparıb. Bunun üçün o, Nehrəmdə məktəb açıb, bacısı Səkinə xanım da daxil olmaqla, səkkiz qızı məktəbə cəlb edib. O dövrdə xurafatın və fanatizmin hökm sürdüyü bir dövrdə qızları təhsilə cəlb etmək üçün böyük iradə, qətiyyət tələb olunurdu. Mirzə Cəlil o zaman mövcud mühiti yaxşı bildiyi üçün hətta kəndlilərin daha çox rəğbət bəslədiyi, mütərəqqi fikirli din xadimlərinin nüfuzundan belə, istifadə edib. Bu xəbər qısa bir vaxtda mətbuatda yer aldı və imperiyanın mərkəzindən çox-çox uzaqlarda yerləşən bir müsəlman kəndində qızların təhsilə cəlb olunması təşəbbüsü, deyərdim ki, şok effekti yaratdı və o, qabaqcıl müəllim kimi şöhrət tapdı.

Ədibin şəxsi həyatının da Nehrəmlə bağlı mühüm məqamları var. O, burada yaşayarkən Nağı kişinin qızı Həlimə xanımla ailə qurub və bu izdivacdan Münəvvər xanım Məmmədquluzadə dünyaya gəlib. Münəvvər xanım da dövrünün mütərəqqi fikirli ziyalı qadınlarından biri olub. SSRİ Ali Sovetinin deputatı Münəvvər xanım Nehrəmdə tibb bacısı kimi fəaliyyət göstərib, 10 il Naxçıvanda Səhiyyə Şöbəsinin müdiri işləyib. 23 yaşımda onunla görüşmək mənə də nəsib oldu. Ömrünün son illərində sovet hökuməti tərəfindən mənəvi terrora məruz qalan və buna əsərlərinin çoxunu sobada yandırmaqla mənəvi etirazını bildirən Mirzə Cəlilin qızı da sovet ideologiyasının yaratdığı mənəvi-psixoloji sarsıntı, qorxu altında atası haqqında ətraflı danışmaqdan ehtiyatlanırdı. Bu da dövrün reallıqları idi. Heç şübhəsiz ki, Cəlil Məmmədquluzadə yaşasaydı, o da xalqının düşünən beyinlərindən biri kimi ailəsi ilə birgə bolşevik rejimi tərəfindən repressiyaya məruz qalacaqdı.

*–Yuxarıda da qeyd etdiyimiz kimi, ədəbiyyatımızın mirzəsi şüurlarda, düşüncələrdə yeniliklər yaratmaqda təkcə sözün qüdrətinə arxalanmayıb. Bu mənada, ədibin Nehrəmdəki ictimai fəaliyyəti barədəki fikirləriniz də maraqlı olar.*

– Görkəmli sənətkar, vətənpərvər ziyalı 1896-cı ildə ilk dəfə olaraq kənd məktəbində diyarşünaslıq muzeyini yaradıb. Nəzərə alsaq ki, Azərbaycanda ilk muzey Cümhuriyyət dövründə – 1919-cu ildə fəaliyyətə başlayıb, onda muzey yaradıcılığı da böyük ədibin adı ilə bağlıdır. O, Naxçıvan tarixi ilə bağlı olan bir çox maddi-mədəniyyət nümunələrini bu muzeydə toplaya bilmişdi. Bolşeviklərin hakimiyyətə gəlişi ilə həmin mədəniyyət müəssisəsinin də fəaliyyəti dayandırıldı. Kənd camaatının əməyini yüngülləşdirmək məqsədilə Tiflisdən ucqar əyalət kəndinə dəmir kotan gətirmişdi. Bundan başqa, fəaliyyətinin Nehrəm dövründə latın qrafikasına keçmək üçün təşəbbüs göstərib, bu məqsədlə Peterburqa gedərək "Novoe vremya" qəzetinin redaktoru ilə görüşüb. Ümumilikdə, onun məqsədi, amalı, sadəcə, xalqa xidmət, onun yaralarını sağaltmaq olub. Ömrünün hər dəqiqəsi, hər anı xalq üçün sərf olunub.





*– Muzeydə qorunub saxlanılan eksponatlar və tarixi sənədlər, Mirzə Cəlilin 150 illik yubileyi ilə bağlı reallaşdırılacaq tədbirlər haqqında da oxuculara məlumat verməniz də istərdik.*

– Əvvəla, onu deyim ki, müstəqillik illərində muzey işinin daha da təkmilləşdirilməsi istiqamətində mühüm işlər görülüb, fondları zənginləşdirilib. Bu işdə sakinlər də yaxından iştirak edirlər. Dahi demokratın müasir üslubda qurulan Xatirə Muzeyində isə ona aid geyimlər, asılqan, beşik, şamdan kimi əşyalar, eləcə də maarifçi-ziyalı Əziz Şərifin atası Qurbanəli Şərifzadə ilə yazışmaları saxlanılmaqdadır.

Mədəniyyət müəssisəsində Mirzə Cəlilin 150 illik yubileyi ilə əlaqədar sərgi təşkil olunub. Fevral ayının 16-da muzeydə muxtar respublikanın Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə bu münasibətlə tədbir keçirilib. Belə tədbirlər ilboyu davam etdiriləcək.

Böyük ədib, yaradıcılığı ilə əsl vətənpərvərlik mücəssəməsi olan dahi Mirzə Cəlilin ruhunun yaşadığı, mənəvi irsinin təbliğ olunduğu muzeydən bu hisslərlə ayrılıram: O dövrdə qızları təhsilə cəlb etməklə böyük bir iradə, qətiyyət, vətəndaşlıq örnəyi nümayiş etdirən Cəlil Məmmədquluzadənin millətinin maariflənməsi ilə bağlı arzularını müstəqil dövlətimiz reallığa çevirib. İndi kənddəki 3 böyük məktəbdə ölkəmizin gələcəyi hazırlanır. Nehrəm ölkəmizin və muxtar respublikamızın ictimai-siyasi, mədəni həyatına tanınmış simalar bəxş etməkdədir. Zamanında Tiflisdən gətirilən dəmir kotana ümid bəsləyən nehrəmlilərin bu gün hər cür texnika və texnoloji avadanlıqları var. Vaxtilə müəllim işlədiyi Nehrəm kənd məktəbində muzey yaratmaq üçün Xalq Məktəbləri İdarəsi müdiriyyətindən yazılı müraciət edərək hansı çətinliklər hesabına icazə alan Mirzə Cəlilin bu gün kənddə müasir üslubda qurulan Xatirə Muzeyi fəaliyyət göstərir, zəngin ədəbi irsi təbliğ olunur. Bir sözlə, Nehrəm bugünkü inkişafı ilə qüdrətli qələm ustasının bir zamanlar arzuladığı, görmək istədiyi bir görkəmdədir.

**Muxtar RZAZADƏ**
***"Şərqin səhəri" qəzetinin redaktoru***

*İdman*

## Kikboksçularımızdan böyük uğur



***Bakı şəhərindəki Şağan Olimpiya-İdman Kompleksində 15-17 fevral tarixlərində kikboksinq üzrə yeniyetmə və gənclər arasında Azərbaycan birinciliyi keçirilib.***

Birincilikdə Naxçıvan Muxtar Respublikası Kikboksinq Federasiyasının yetirmələri də mübarizə aparıblar. Kikboksçularımızın əksəriyyətinin ilk dəfə ölkə miqyaslı yarışda iştirak etməsinə baxmayaraq, onlar uğura imza atıblar. Belə ki, qızların mübarizəsində 60 kiloqram çəki dərəcəsində Lalə Namazlı gümüş medal qazanıb.

Oğlanların yarışında isə idmançılarımız 4 müxtəlif əyarlı medal əldə ediblər. +81 kiloqram çəki dərəcəsində Məmməd Məmmədli fəxri kürsünün ikinci pilləsinə qalxıb. Qənbər Nəqiyev (51 kiloqram), Elnur Nuriyev (67 kiloqram) və Yusif Quluzadə (71 kiloqram) isə birinciliyi üçüncü pillədə başa vurublar.

Qalib idmançılarımız diplom və medallarla təltif olunublar.

***İran İslam Respublikasının Astara şəhərində karate üzrə keçirilən 4-cü beynəlxalq festivala yekun vurulub.***

## Karateçilərimiz beynəlxalq turnirdə 7 medal qazanıblar



Festivalda Naxçıvan Muxtar Respublikası Karate-do Federasiyasının yetirmələri də iştirak ediblər. İki gün davam edən yarışda idmançılarımız 7 medal qazanıblar.

16-17 yaşlı idmançılar arasında Aslan İsmayılov (76 kiloqram) və +18 yaşlı idmançılar arasında Sərcan Məmmədov (60 kiloqram) fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar. 14-15 və +18 yaşlı idmançıların mübarizəsində isə Vüsal Seyidov (52 kiloqram) və Murad Ələkbərov (60 kiloqram) gümüş medal qazanıblar.

Kata yarışlarında isə Qafar Hüseynov (12-13 yaş), Həsən Səfərli (8-9 yaş) və Rafiq Hüseynli (9 yaş, 30 kiloqram) üçüncü yerə layiq görülüblər.

Sonda idmançılarımız təşkilatçılar tərəfindən mükafatlandırılıblar.

## Boksçumuz Azərbaycan birinciliyində üçüncü olub

*Bakı şəhərində keçirilən gənc boksçular arasında Azərbaycan birinciliyi başa çatıb.*

Bakı və respublikanın müxtəlif bölgələrini təmsil edən 35 komandanın qatıldığı yarışda 150-yə yaxın idmançı mükafatlar uğrunda mübarizə aparıb. Boks Mərkəzində 5 gün davam edən birincilikdə 10 çəki dərəcəsində çempion və medalçılar bəlli olub.

Ölkə birinciliyində Naxçıvan Muxtar Respublikası Boks Federasiyasının yetirmələri də iştirak ediblər. 69 kiloqram çəki dərəcəsində rinqə çıxan idmançımız Türkeş Mustafayev bürünc medal qazanıb, diplom və medalla mükafatlandırılıb.

**✍ Ceyhun MƏMMƏDOV**

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Gülcamal Tahirova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1495. Sifariş № 135